

Bu gün UEFA Avropa Liqasının II təsnifat mərhələsinin cavab oyunları keçirilir.

Təmsilçilərimizdən “Xəzər Lənkəran” öz meydanda İsrailin “Makkabi” (Hayfa) klubunu qəbul edib.

Cənub təmsilçisin ilk oyunda rəqibinə uduzmağını və “Makkabi”nin komandamızdan birbaş güclü olmağını nəzərə alsaq, İsrail klubunun mərhələ adlayacağı daha real görünürdü. Çünki təmsilçimiz növbəti mərhələyə adlaması üçün güclü "Makkabi" klubuna ən azı 3 cavabsız qol vurmalı idi.

Amma bunun əksi oldu. "Makkabi" "Xəzər Lənkəran"ı biabırçı məğlubiyyətə uğratdı. İsrail klubu 90 dəqiqə ərzində komandamızın qapısından 8 cavabsız top keçirdi.